# Almaniyada Azərbaycan legionu

*Azərbaycanın Almaniyada təşkil olunmuş legionu haqqında oxuculara bilgi vermək yerinə düşərdi. Bildirmək istəyirəm ki, həmin legionun iştirakçılarından bəziləri indi də Azərbaycan və Almaniyada yaşayırlar. Vaxtilə xatirələrini söyləyənlərdən Fərman Məmmədov keçən günləri belə yada salır:*

*- 1941-ci ilin oktyabrın ortalarında Vyazmada, 160-cı diviziyanın tərkibində, mühasirəyə düşdük. Bunun nə demək olduğunu yaşıdlarım yaxşı bilirlər: əsir düşən ya ölməli, ya da geri dönməli idi. Əks-təqdirdə əsirləri Vətəndə ağır cəza, dözülməz işgəncələr gözləyirdi. Bunlardan xəbərdardım. İki dəfə əsirlikdən qaçmağa cəhd göstərdim. Ələ keçdim. Tutub gətirdilər, qolumu-qıçımı sındırdılar. Ölümümü istəyirdim. Allaha yalvarırdım ki, nəfəsimə son qoysun. Növbəti qaçış cəhdində məni yaxalıyıb Saksenhauzendəki əsirlər düşərgəsinə saldılar. Təqribən 6 ay yenə dəhşətli fiziki işgəncələrə, aclığa-susuzluğa məruz qaldım. Min bir müsibətdən sonra nəhayət, azadlığa çıxdım. Məmməd Əmin Rəsulzadənin göndərdiyi xüsusi adamlar almanlarla danışığa girdilər. Alman ordusu nəzdində yaradılan Azərbaycan milli ordusunda qulluq etmək təklifini ürəkdən qəbul etdim.*

*Bunları deyib Fərman bəy yenidən xəyala daldı. Və qarşısındakı pivədən bir-iki qurtum içib davam etdi:*

*- Məsələ burasındadır ki, sizlər 1988-ci ildən üzü bəri Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizəyə qalxdığımız halda bizlər hələ o zaman təşkil olunmuş Milli ordu tərkibində doğma yurdumuzu Moskvanın boyunduruğundan qurtarmaq üçün Sovetlərə qarşı döyüşlərə girişmişdik...*

Fərman 1943-cü ildə iki dəfə yaralandı və nəhayət, Berlinə aparıldı. Azərbaycan milli ordusunun baş komandanı mərhum Əbdülrəhim Fətəlibəyli onu özünə yavər, yəni adyutant götürmüşdü. Eyni zamanda F. Məmmədov cəbhə ilə qərargah arasında rabitəçi vəzifəsini daşıyırdı. Yeri gəlmişkən deyim ki, Fətəlibəylinin özü barədə qeydlərimi bir qədər sonra, ayrı bölmədə oxuculara təqdim edəcəyəm. İndi mətləbdən yayınmayaq. 1944-cü ilin ortalarında Fərmanı Almaniyanın cənubunda - İsveçrə ilə sərhəddə yerləşən Frayburq şəhərinə göndərdilər.

- Məmməd Əminlə burada görüşmək səadətinə çatdım. Frayburq şəhəri həmin vaxtadək bombardman edilməmişdi. Məmməd Əmin Rəsulzadə şəkər xəstəliyinə mübtəla olmuşdu. Odur ki, onun Berlinə qayıdıb Azərbaycan milli birlik təşkilatına rəhbərlik etmək imkanı yox idi. Məyus halda Berlinə qayıtmalı oldum. Müharibənin 1-ci qışında əsirlərin böyük qismi qırıldı. Mənim əsirliyim müharibənin ikinci qışına təsadüf etmişdi. Bizi Polşada - Radom şəhəri yaxınlığındakı Yedlina qəsəbəsində yaradılmış xüsusi düşərgələrdə yerləşdirdilər. Azərbaycan milli legionu da həmin qəsəbədəki düşərgələrdə idi. Tale məni bu legiona bağladı. Fətəlibəylinin dediyinə görə, belə tipli legionlarda 100 minə yaxın azərbaycanlı vardı. Azərbaycan legionu yaratmaq fikri 1941-ci ilin sonu - 1942-ci ilin əvvəlində meydana gəlmişdir. Legionun başçısını təyin etmək böyük müzakirələrə səbəb oldu. Rəsulzadə şərt qoymuşdu ki, rus imperiyası dağılsa Almaniya Azərbaycanın istiqlalını tanıyacaqmı? Almanlar bu məsələdə ona qəti cavab verməmişdilər. Bəlkə elə buna görə də Məmməd Əmin Berlindən çıxıb getmişdir. Müharibənin sonunadək legionda olduq. Müharibənin gedişində alman dilini öyrənmək üçün xüsusi olaraq yaradılmış məktəbdə oxuduq. Həmin məktəblərdən biri Berlindəydi. Şərq cəbhəsində rusların irəliləməsi ilə əlaqədar legionları geri çəkib hərbi hissələri Fransada yerləşdirdilər. Mən bir müddət Fransada oldum, müharibənin axırında isə İtaliyada idim. Müharibədən sonra bir çox azərbaycanlının daxil olduğu kiçik hərbi hissələr İsveçrədə qərar tutdu. Lakin əksəriyyətini ingilislər və amerikanlar ələ keçirib ruslara təhvil verdilər. Elə Almaniyanın özündə də beləlrəri təqib olunur, ya məhv edilir, ya da tutulub aparılırdı.

**Ə. Fətəlibəylinin qətli ilə əlaqədar M. Ə. Rəsulzadənin nitqi:**

"Ölülərimizi xeyirliyə yad etmək kültürümüzün və ictimai tərbiyəmizin vacib tələbidir. Siyasət və Şər - hansı digər bir sahədə fərqlənmiş vətəndaşların həyatını obyektiv bir qavrayışla təsvir etmək tarixçilərin vəzifəsidir; məzarları başında məziyyətlərindən bəhs etmək vida mərasimlərinin ənənəsidir. Rus - bolşevik istilası əleyhinə və Vətənin hürriyyəti ilə istiqlalı lehinə yapılan milli mücadilənin qurbanları olan azərbaycanlıları təqdir etmək vəzifəmizdir. Burada qəddar düşmənin xəlvət və vəhşi zərbəsiylə aramızdan faciəli surətdə ayrılan mücahid Fətəlibəylinin məziyyətlərindən bir neçə hadisə zikr etməklə vida borcunu ödəmək məqsədiylə hüzurunuza çıxmışam. 1943-cü ildir; ikinci dünya müharibəsi illərində Almaniya Xarici İşlər Nazirliyi böyüklərindən olan qraf fon Şulenburqun (sonradan Hitlerə edilən sui-qəsd işilə ilkili olaraq edam edilən) dəvəti ilə Berlindəyik. Milli Azərbaycan Komitəsi təşkil edilmişdir: bu komitə Milli Azərbaycan davasının əsaslarını alman rəhbərlərinə qəbul etdirmək üçün fəaliyyətə Şərq məmləkətləri vəkalətində xüsusi şöbə müdiri prof. Fon Mendevasitəsiylə cəbhədən 8 may tarixlə bir məktub alıram. Tarixi bir vəsiqə mahiyyətini daşıyan bu məktubun əsli ruscadır. Mətnini eynilə oxuyuram (tərcüməsi budur): "Salam, çox möhtərəm Məmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz mücahidi olan Sizi cəbhədəki bütün əsgərlərimiz adından salamlayıram. Məmnunluqda Sizə bildirməliyəm ki, vətəndaşlarımız yurdumuzun hürriyyəti və Böyük Almaniya uğrundakı mücadilədə cəbhədə böyük uğurlar qazandılar və misilsiz qəhrəmanlıqlarıyla millətimizin şərəf və heysiyyətini əlçatmaz səviyyəyə yüksəltdilər. Cəbhəmizə iki dəfə gəlmiş general Konrad bizdən heyranlıqla bəhs edirdi. General Göstrinqdən təbrik məktubu aldım. General feldmarşal Klistin batalyonumuza aid gündəlik xüsusi əmri vardır. Ağır səfər və hərbi hərəkatdan sonra bir az istirahətə çəkilib yeni döyüşlərə hazırlaşırıq. Batalyonumuzun döyüş qabiliyyəti Baş komandanın yüksək təqdirinə layiq olmuş, əsgərlərimizlə komandirlərimiz "İnfanteri Sturmabsixen" medallarıyla təltif edilmişlər. Qəzetimizdə Milli Azərbaycan Komitəsinin təşkil olunduğunu oxudum; bu məni çox sevindirir. Biz cəbhədəki əsgərlər, şübhə etmirik ki, Milli Komitəmizin üzvləri arasında hamımızca sevilən, legionumuzun qurucusu Babayev Beytullah da olacaqdır. Biz gələcəkdə də millətimizin azadlığı və Böyük Almaniya uğrunda fədakaranə tərzdə döyüşəcəyik. Cəbhədəki bütün əsgərlərdən Sizə salam. Sizə yaxşı səhhət diləyirəm. Sizin Ə. Fətəlibəyli Düdənginski".

1943-cü ildə Berlində azərbaycanlıların milli qurultayında əsas məruzə ilə Fətəlibəyli çıxış etdi. Onun bir cümləsi hələ də yadımdadır: "Azərbaycanı əsrlər boyu azərbaycanlılar

idarə etmişdilər və bundan sonra da etməlidirlər. Ancaq torpağı rus imperiyasının boyunduruğundan azad etmək lazımdır". Həyat indi onun fikirlərinin doğruluğunu sübuta yetirdi.

Şəxsiyyəti və fəaliyyəti doğmaca vətənində tanınmayan, lakin əsərləri Avropa ölkələrində geniş yayılan Azərbaycan mühacirlərindən biri də istedadlı jurnalist və tərcüməçi Məcid Musazadədir. O, 1914-cü il oktyabr ayının 10-da Bakıda dünyaya göz açmış, burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin ədəbiyyat və tarix fakültəsinə daxil olmuşdu. Universiteti uğurla başa vuran gənc Məcid Musazadə Bakıdakı dövlət kitabxanalarında əmək fəaliyyətinə başlamışdı. Lakin Böyük Vətən müharibəsi onu sevdiyi işindən birdəfəlik ayrı saldı.

1941-ci ildə müharibənin od-alovu içərisinə göndərilən Məcid 1942-ci ilin qızğın döyüşlərindən birində almanlara əsir düşdü. Burada yaxşı adamlarla rastlaşdı. Geniş dünyagörüşə malik ziyalı kimi tanınaraq vaxtsız ölümün pəncəsindən qurtarıb Berlinə göndərildi. Mühacir həmyerlilərinin köməyi ilə əsirlikdən xilas olunan Musazadə əvvəlcə Berlindəki Azərbaycan "İrtibat qərargahı"nda, sonra isə Məmməd Əmin Rəsulzadənin mənəvi rəhbərliyi ilə nəşrə başlayan "Azərbaycan" qəzetinin mühərriri və baş redaktoru vəzifələrində 1945-ci ilə qədər çalışmışdır. Müharibədən sonra o, Münxen şəhərində yaşamış, "Azadlıq" radiosunun Azərbaycan şöbəsində fasiləsiz 26 il işləmiş, müxtəlif illərdə şöbənin baş redaktoru olmuşdur. Peşə imkanlarından istifadə edərək həmişə xalqımızın ədəbiyyatını, tarixini, adət-ənənələrini fəal təbliğ etmişdir.

1990-cı il mayın 28-də "Türk Dünyası Araşdırma Vəqifinin" Kaysern şəhərində təşkil etdiyi Birinci Azərbaycan nümayəndə heyətinə yaxınlaşaraq 40 il özü ilə gəzdirdiyi və Avropa ölkələrinin yüksək məclislərini bəzəmiş üçrəngli, ayparalı və səkkizgüşə ulduzlu milli bayrağımızı Azərbaycana bağışlamaq arzusunda olduğunu bildirmişdir. Lakin amansız ölüm ona bu müqəddəs arzunu həyata keçirməyə imkan vermədi. Qəlbi həmişə vətən həsrəti ilə döyünən M. Musazadə 1990-cı il iyulun 17-də 76 yaşında vəfat etdi. Dostları onu iyulun 20-də vətəndən çox-çox uzaqlarda - Münxendə Nordfriedxof adlanan yerdə torpağa tapşırdılar.

Məcid Musazadə Avropa ölkələrində bakılı Romeo və Cülyetta kimi məşhurlaşan "Əli və Nino" romanını 1972-ci ildə almancadan azərbaycancaya çevirmişdir. O, Qarabağ hadisələri ilə bağlı Azərbaycanın haqq işini müdafiə edən onlarla tarixi-publisist məqalə yazıb çap etdirmişdir. "Qarabağın zəngin tarixinə dair" sərlövhəli məqalə də bu qəbildəndir. Həmin məqalə Əlimuxtar Ordubadinin Parisdə fransız dilində hazırladığı və Monrealda keçən il nəşr etdirdiyi "Qafbüro, Dağlıq Qarabağ, Stalin" kitabında çıxmışdı. Aliyə xanım Məstəlinin (Səmədovanın) tərcüməsində məqaləni ixtisarla oxuculara təqdim edirik.

Alman tarixçisi Henrix Zimmfer 1923-cü ildə özünün "Ermənistan yeni dövrdə" məqaləsində yazırdı ki, "Böyük Ermənistan"ın mövcudluğu iddiası əsaslı deyil və elmi axtarışlar tələb edir. O yazır ki, yalnız XVIII əsrin sonunda ermənilər özlərini Avropa xalqları kimi mövcudluğa layiq bilmişdilər. Bəs niyə məhz XVIII əsrdə? Müəllifin dediyi kimi, çünki onlar Asiyadan Avropayacan çox böyük bir əraziyə - İrana, Qafqaza, Rusiyaya, Suriyaya, Misirə, Balkanlara, Polşaya, Macarıstana, eləcə də İtaliyaya səpələnmişlər.

Ermənilər bu gün bütün qonşularına - İrana, Türkiyəyə, Azərbaycana, Gürcüstana ərazi iddiaları irəli sürürlər. Onlar dənizdən-dənizə, yəni Qara dənizdən Xəzər dənizinəcən, Aralıq dənizindən Kürəcən, hətta Armavirəcən "Böyük Ermənistan" barədə düşünməni davam edirlər. Bu sərsəmləməni ağıllı ermənilər özləri də əsassız saymışlar. Məşhur erməni yazıçısı İsgəndər Şirvanzadə (o, Şirvanda yaşamış-



dı) Zaqafqaziyanı sacayağa bənzətmişdi. O deyirdi: "Onun bir ayağını sındırmış olsan, bu birlik heç nəyə yaramır. Belə ki, Zaqafqaziyanı Gürcüstansız, Azərbaycansız, Ermənistansız təsəvvür etmək olmur. 1920-ci ildə məhz bu ayağın biri, yəni Azərbaycan Qızıl Ordu tərəfindən zəbt olundu. Sonra da iki o biriləri eyni nəhəngin gövdəsinə düşdü. Azərbaycan kimi, Ermənistan və Gürcüstan da öz müstəqilliklərini itirdilər.

Fətəlibəyli Düdənginskinin adyutantı Gərar Ələsgərov Leninqrad Hərbi Məktəbini bitirmişdi ki, II Cahan müharibəsi başlandı və 1941-ci ilin sentyabrında almanlara əsir düşdü. Almanlar bizi yüz minə qədər əsir topladıqları Keniqsbergin "Telzit" hərbi düşərgəsinə və oradan da yalnız azərbaycanlıları ayırıb "Şelezi" düşərgəsinə apardılar. Burada, Azərbaycan və rus dillərində sərbəst danışan alman zabitləri bizimlə müəyyən təlim keçdikdən sonra, Bavariyanın "Berqman" (dağlı) hərbi hissəsinə gətirdilər. Burada bizi dağ şəraitində döyüşə hazırlayırdılar.

1942-ci ildə M.Ə. Rəsulzadə, keçmiş Türkiyə hərbi ekspedisiya korpusunun komandanı Nuru Paşa, ADR-in maliyyə naziri olmuş Əbdüləli bəy Əmircanovun oğlu Məmməd Əmircan, kürəkəni Əbüzziya, mühacirətdə olan "Müsavat" partiyasının nümayəndələri bizim hissəyə tez-tez gəlir, milli hərbi hissələrin yaranma səbəblərini və vətənin azadlığı üçün zəruriliyini izah edir, bizə əhəmiyyətli, mühüm məsləhətlər verirdilər. Berlində Azərbaycan dilində qəzet nəşr etdirirdilər. M.Ə. Rəsulzadə yorulmaq bilmədən çox böyük təkidlə işləyirdi. Alman komandanlığı və siyasi xadimlərlə fəal danışıqları nəticəsində böyük Azərbaycan legionu yarandı və onun komandanı mayor Əbdül Rəhim bəy Fətəlibəyli Düdənginski təyin edildi. Artıq Azərbaycan legionunda yeddi mindən çox döyüşçü vardı və "Aslan", "Qorxmaz", "Dönməz", "Vətən" və başqa hissələrdən ibarət idi. Bütün bu hissələr Qafqazın Sovetlərdən azad edilməsi üçün qəhrəmancasına vuruşurdular. Qafqaz xalqları bizim hissələri, özlərinin xilaskarı kimi, sevinclə, fərəhlə qarşılayırdılar. Ağsaqqallar qarşımıza çıxır, bizə xeyir-dua verirdilər. Sovet hərbi hissələrindən bizə çoxlu döyüşçü qoşulurdu. Mozdoka daxil olub, mühüm strateji əhəmiyyətli Elbrus və Kazbek yüksəkliklərini tutduq. Lakin almanların Volqa və Stalinqrad döyüşlərindəki məğlubiyyətləri nəticəsində biz də geri çəkilib Krımın müdafiəsini möhkəmləndirməyə çalışırdıq.

Drezdendə hərbi məktəbi bitirib Fransanın cənubundakı legionumuzun qərargahına gəldim. 1944-cü ildə "Novruz" bayramı ərəfəsində Parisdə Əlimərdanbəy Topçubaşovun qızı Sara xanım özü üçrəngli bayraqlarımızı tikib mənə verdi. Bayraqları gətirib legionerlərimizin təntənəli mərasimində komandanlığa təqdim etdim. Bu təntənədə Ceyhun bəy Hacıbəyli öz ailəsi ilə, Hacı Zeynalabdin Tağıyevin qızı Leyla xanım, Əli Əşrəf Kürdəmirli, milyonçu Əlibəy Hacınski və b. iştirak edirdilər. Bundan sonra əsgərlərimiz sol qollarına Vətənin bu üçrəngli simvolunu tikdirdilər. Az sonra Fətəlibəyli məni özünə şəxsi adyutant təyin etdi. Müharibədən sonra onunla İtaliyaya gedib öz legion hissələrimizi birtərəf ölkələrə keçirməyə başladıq.

Qısaca da olsa, Legion haqda bu məqalədəki yazılar, düşünürəm ki, sizlərin bu sahədə aparılacaq elmi araşdırmalarda ən azı başlanğıc üçün bir mənbə olacaqdır.

***Çingiz Abdullayev,***
***texniki elmlər namizədi***

Ədəbiyyat

1. *Nazim Rizvan. Azərbaycan diasporası tarixindən. B.2002*
2. *Çingiz Abdullayev. Almaniya - Azərbaycan əlaqələri. B. 2000*